# ÖLMƏYƏN SEVGİNİN DASTANI

*(məsnəvi - poema)*



*Əli Rza XƏLƏFLİ*

## VII. Son notlar, son duyğular

Bir gecə yuxumda qanad açmışdım,
Baxdım göy üzündən Dağ Xələfliyə.
Göyün qurşağında yeridim getdim,
Qövsi-qüzeh üstə tağ Xələfliyə.

Qəlbimdə həsrətin qurulu taxtı,
Tutub saxlamadım dövranı, vaxtı.
Daha qınamadım taleyi, baxtı,
«Görsən tanımazsan bax, Xələfliyə».

Bu daş tərəzidə mənim öz yaşım,
Yandı ürəyimdə, yandı köz yaşım.
Göllənib gözümdə qalan göz yaşım,
Araz ol, Araz ol, ax, Xələfliyə.

Daha diləklərin amanı bitdi,
Yaxşısı ütüldü, yamanı bitdi,
Allahın Allahlıq zamanı bitdi,
«Necə dağ çəkiblər dağ, Xələfliyə».

Göndər, nə dərdin var, canıma göndər,
Göndər, mələyini yanıma göndər.
Apar öz yanına, buluda döndər,
Məni yağış elə, yağ, Xələfliyə.

Oyansın uyuyan yuxulu başlar,
Oyansın o dağlar, qayalar, daşlar,
Oyansın gözlərdə göllənən yaşlar
Qəzəb qılıncını çax, Xələfliyə.

Dağını, bağını quraq apardı,
Uzalı əllərdən soraq apardı,
Yazdım, sözlərimi varaq apardı,
«Sinəsi bağçalı Bağ Xələfliyə».

Yeyir yazmadığım söz ürəyimi,
Verdim Əli Rzaya öz ürəyimi;
Cızdağa döndərdi köz ürəyimi,
Əridi tavada yağ, Xələfliyə.

Can güldü canımda gedən davaya,
Sözüm məlhəm olsun yurda, yuvaya.
Döndərim ahımı dərdə, dəvaya,
Sağalsın yarası, sağ Xələfliyə.

Dəyişdi dövranın, döndü gərdişi,
Qaytardı sahmana Allah hər işi.
Gəldi səhərlərin doğan günəşi,
Dedi üzün gülsün çağ, Xələfliyə.

İlham qanad açar bu yerə, göyə,
Əli Rza da baxa, sözünü öyə.
Dəmir yumruq sənə yol açıb deyə,
Apar bayrağını tax, Xələfliyə.

İllər öncə yaşadım bu dərdli uyğuları,
Xələfliyə yazmışdım kədərli duyğuları.

Yazmışdım dərd bilənə təskinlik kəlam olsun,
Abdulla Qurbaniyə Diridən salam olsun.

Zaman dəyişdi, keçdi yağılar qan uddular,
Yağılara dərs oldu, dərd yeyib, can uddular.

Dağılmış Xələflini ağlamışdım bir zaman,
İndi təzə sabaha açılır təzə güman.

Lənətlədik ikrahla erməni sifətini,
İnsanlara dərd-bəla gətirən nifrətini.

Yerdə qoymadı Allah, körpələrin ahını,
Gülər gözlə seyr etdik, bu yurdun sabahını.

Haylara son dərsini verdi "dəmir yumruq" da,
Ali Baş Komandandan gəldi əmr yumruqda.

Abdulla Qurbaniylə gəzdik Qarabağı biz,
Xələflidən seyr etdik dağ-dağ olmuş dağı biz.

Dostumun varlığında sözdən çələng toxudum,
Bir sevgi dastanından neçə nəğmə oxudum.

Əlbəttə, İsaxansız getmədim o yerlərə,
Biz birlikdə gedirdik ziyarətə, pirlərə.

Mən şəfa diləyirdim dostuma Allahımdan,
Xoş günlər diləyirdim açılan sabahımdan.

Danışdım Qurbaniyə Dirili Qurbanidən,
İsaxana salam var, Pərili Qurbanidən.

Son yarpaqlar yazılır dastanın sonluğuna,
Sözüm ura bağlayır, bostanın sonluğuna.

...Salam, dostum İsaxan, gözüm səni arayır,
Soyuq payız küləyi ömrümüzü dalayır.

Qışdan xəbər gətirir xəzəllənən hər yarpaq,
Görürəm ki, tələsir uyumağa nəm torpaq.

Yaz gələndə dirilər, təbiət cana gələr,
Çiçək-çiçək açılar, yenə üzə yaz gülər.

Bilirsən ki, xoş ülfət sözümüzə yol açır,
Misra-misra söz olan duyğular işıq saçır.

Hər baharda ümidlər təzələnər, oyanar,
Duyğu-duyğu istəklər əlvan rəngə boyanar.

Biz qaytara bilmərik bizdən ötən günləri,
Həsrətlə seyr edərik gözdən itən günləri.

Həyatımız söz üstə məna tutub, boy atıb,
Qəlbimiz söz meyindən dad alıb, kama çatıb.

Kimə açım qəlbimi, könül açan dost hanı?
Varlığımda çırpınır bir sevginin dastanı.

Kimə deyim, yazmasam, könüldaşlar inciyər,
Kimə deyim - yaxın gəl, sözlərimdən inci dər.

Bir sevgi hekayəti köz-köz olub sinəndə,
Bəlkə, yara bağlayıb, göz-göz olub sinəndə.

Mən də sənin sinəndən ağrıları dərmişəm,
Bir eşqin ağrısını sinəm üstə sərmişəm.

Xəstəliyə qalib gəl, söz eşqinə qayıt, gəl,
Əzabkeş Nəsimiyə öz əhdini ayıt, gəl.

Bilirsən ki, gözləyir "Xəzər"in gözü yolda,
Sənsiz yetməz marama, şairin sözü yolda...

Hələ çoxlu suallar çözülsün gərək bir-bir,
Qoy açılsın qərəzlər, özümüz görək bir-bir.

Gərək yaxşı tanıyaq din ayrı xəbisləri,
Uçurum dərələri yaradan iblisləri.

Günahsız sevgilərin ahı tutdu onları,
Açıldı simaları, paltarları, donları.

Qızını bədbəxt edən Sergeyi kin yeyirdi,
Türk oğluna qərəzi ədaləti əyirdi.

O, bilirdi tarixin yolu hardan keçəcək,
O, bilirdi özü də hansı yolu seçəcək.

"Krunk"un quyruğunda sürünürdü məsləki,
Min hiyləyə, min dona bürünürdü məsləki.

Gözlərini tutmuşdu erməni xəstəliyi,
Qarabağı qəsb etmək nəğməsi, bəstəliyi.

Kütləvi psixozun havasına oynadı,
Varlığında türkliyə qəzəb, nifrət qaynadı.

"Krunk"un sədasına, səsinə hay verirdi,
Arvadından, qızından gizlincə pay verirdi.

Beyinləri yeyirdi siyasət dəllalları,
Fantastik Ermənistan qururdu xəyalları.

Aldadır insanları liderlər, başbilənlər,
Doğru-dürüst tarixi tərs yazan, çaş bilənlər.

Sergeyi də bu tora çoxdan salmışdı onlar,
İnsanlığa ləkədir kin, ədavət yayanlar.

Nana ilə İlqarın yolu belə ayrıldı,
Yurd boyu axan qanlar döndü selə - ayrıldı.

İki təmiz ürəyin sevgisi şəhid oldu,
Neçə nahaq qanlara tarix də şahid oldu.

Xəyalım düşüncədə İlqarı soraqlayır,
Olub keçmiş zamanı arayır, varaqlayır.

Düz on beş il qalırdı ötən əsrin sonuna,
Zaman da bürünəcək qan-qırmızı donuna.

Bəli, üç il keçəcək, başlayacaq qan, qada,
Unudulmaz faşizmin əməlləri dünyada.

Ter-Petrosyan, Köçəryan, Sərkisyan lənətlənər,
İnsanlığın ləkəsi... zaman-zaman söylənər.

Günahsız sevgilərin kim deyər günahı var,
Gör neçə İlqarların, Nanaların ahı var.

Bu ahlar göy üzündə bulud olub qalmadı,
Tarixin yaddaşında saralmadı, solmadı.

«Bir sevgi dastanı»nı əvvəl İsaxan yazdı,
Sonra da bir Xələfli ölməyən dastan yazdı.

İndi görək İlqardan daha hansı soraq var,
Görək bizim aşiqlər sonda harda qaldılar?

..."Mars" elmi mərkəzinə dostları çağırdılar,
Könlünü almaq üçün İlqarı çağırdılar.

Ulyanovsk şəhəri, könül açan təbiət,
İlqarın varlığına işıq saçan təbiət.

Yeni iş, yaxşı dostlar dayaq oldu İlqara,
Gətirmişdi İlqarı qisməti bu diyara.

İstiqanlı dostların sevgisi də sönməzdi,
Dostların birliyi də öz yolundan dönməzdi.

İnamla yaşamaqdır indi onun diləyi
Heç özü də bilmədən dəyişirdi taleyi.

Zaman-zaman durulur gözlərində dünyası,
Yeni həyat qururdu sözlərində dünyası.

*Davamı 9-cu səhifədə)*

(Əvvəli 8-ci səhifədə)

Hekayələr, şeirlər boş vaxtının mənası,
Söz içində yaşamaq öz baxtının mənası.

Rəhman, Fərman dostları... yataqxana həyatı,
Çox maraqlı keçirdi hər günü, hər saatı.

Muğam, mahnı, kasetlər ruhuna can verirdi,
Təzə arzu, diləklər qəlbinə qan verirdi.

Hələ futbol, voleybol... idman sağlamlıq demək,
İnsanın həkimidir gözəl iş, gözəl əmək.

Hərdən xəyalən özü Bakıya da qayıdır,
Uyumuş keçmişini xatirələr oyadır.

Payızın nəfəsini varlığında duyunca,
Dedi dönüb Bakıya, bir gəzəydi doyunca.

Az müddətə icazə aldı öz iş yerindən,
Gəlib gəzsin, qurtarsın Bakının qəhərindən.

...Oxucum yaxşı bilir yara aldığın yerdə,
Görən kimi oyanar yaralı göynəm bir də.

Payızın xəzan yeli küçələrdə oynayır,
İlqarın xəyalında xatirələr qaynayır.

Xəyalında öpürdü İlqar tanış yerləri,
Ona qucaq açırdı sevgisinin sirləri.

Gözlədi bir az ötsün qəlbinin həyəcanı,
Əlləri titrəməsin, sakitləşsin öz canı.

Budur, zəngin səsinə içəridən səs gəlir,
Kimdir, kimi istəyir, ün gəlir, nəfəs gəlir.

Dedi - mənəm, İlqardı, - Nananı istəyirəm
Deyirəm ki, qəlbimi duyanı istəyirəm.

Nananın xalası da bu səsi tanıyırdı,
Sevgi dolu diləyi, nəfəsi tanıyırdı.

Qapını açıb dedi: - Xoş gəlmisən, ay İlqar,
Sən özün bir dənəsən, axı səndən harda var.

Gəl görüm, gəl içəri, indi Nana da gələr,
Bilirəm ki, darıxıb, o da sevinər, gülər.

İlqar keçib əyləşdi, intizarla gözlədi,
Hər keçən dəqiqəni intizarla izlədi.

Nananın xalası da çay gətirdi İlqara,
Sanki xoş niyyətindən pay gətirdi İlqara.

Bu vaxt qapı açıldı, gələn Nana özüydü,
Hələ özü gəlməmiş eşidilən sözüydü.

Bilirsənmi, ay xala, İlqar gəlib burdadır,
Birdən məni soruşsa, de, - bilmirəm hardadır.

- Nə deyirsən, ay qızım, İlqar evdə əyləşib,
Deyəsən sənin ağlın tamam itib, keyləşib.

Bir gün gəldi Bakıya tələbəlik yoldaşı,
Tələbəlik çağının qələbəlik yoldaşı.

Qalmış olar Artur da oxucumun yadında,
Şən çağların Arturu yenə qalır dadında.

Qucaqlaşıb görüşdü, şən əhvalla danışdı,
Dedi, biləsən dostum, sevgilər aldanışdı.

Ancaq sizin sevginiz ayrıca bir aləmdi,
Əsl sevgilər özü bilinməz sirr aləmdi.

Mən məktub gətirmişəm sənə gözəl Nanadan,
Yəqin yazıb sözünü bünövrədən, binadan.

Məktubu verib Artur tez də ayrılıb getdi,
İlqar xeyli gözlədi, dumanı, çəni ötdü.

Volqanın sahilinə gəldi ordan birbaşa,
Gözlərinin önündə Nana dönmüşdü daşa.

Açıb baxdı kağıza, görsün Nana nə yazır,
Görsün hansı Allaha, imana, dinə yazır.

Oxudu bircə-bircə Nananın sözlərini,
Hər kəlmədə ağlayan görürdü gözlərini.

Ancaq daha gec idi, İlqar hökmü vermişdi,
Əbədi ayrılığın son gülünü dərmişdi.

Məktub əlində onu xəyallar aparmışdı,
Bu bəlalı sevginin əlindən qoparmışdı.

*(məsnəvi - poema)*

# ÖLMƏYƏN SEVGİNİN DASTANI

Doğma Bakı... gəzinti... İlqarın gözü doymur,
Xəyalən vəsf eləyir, söhbəti, sözü doymur.

Qəfil gördü Gülyanı, metronun çıxışında,
Gülya nəsə deyirdi mənalı baxışında.

Görüşdülər hal-əhval,.. söhbət bir az uzandı,
Təzə xəbər deməyə Gülya fürsət qazandı.

Dayan İlqar, - söylədi, baxdı onun gözünə,
Sonra da aram-aram o, başladı sözünə.

Nana indi hardadır? - bilirsənmi, ay İlqar,
Sevgisində günahsız Nanadan xəbərim var.

Heç dördcə ay keçmədi, qaytardı nişanını,
O, qaytarmaq istədi şərəfini, şanını.

Üz döndərib atadan, o ayrılıb anadan,
Daha orda yaşamır, köçüb gedib binadan.

İndi xalasıgildə dərd içində yaşayır,
Qəlbinin ağrısını özü tənha daşıyır.

Müəllim işləsə də, deyir bədbəxt olmuşam,
Deyir ki, yaşamıram, vallah, cana dolmuşam.

Sonra Gülya ünvanı, telefonu da yazdı,
Həyatın axarında qanunlar pozulmazdı.

Əlindəki kağıza İlqar dayanıb baxır,
Dumanlı düşüncəsi dərdə boyanıb - baxır.

Gülya çıxıb getmişdi, İlqar tənha qalmışdı,
Hansı addımı atsın - xəyallara dalmışdı.

Ovcundakı kağızda sanki ürək çırpınır,
İki qəlbin istəyi arzu, dilək çırpınır.

Ünvana bir də baxdı, qətiyyətlə yeridi,
Qəlbində qərar verdi ciddiyyətlə yeridi.

Artıq axşam düşmüşdü, tapdı məlum ünvanı,
Sinəsində çırpınan quş tapmışdı yuvanı.

Axı İlqardan yana aylardır dərd çəkirdin,
Dərd də səni yedikcə için-için çökürdün.

Keç, keç bir içəriyə, get özün görüş, danış,
İnsanı bədbəxt edər saxta görüş, aldanış.

Nana keçdi içəri, soyuq salam söylədi,
Nə artıq bir söz dedi, nə də kəlam söylədi.

Sevənlərin qüruru çox vaxt ziyan gətirir,
Ayrılığı, həsrəti dərdə həyan gətirir.

Dinmədi heç birisi, sakit, səssiz qaldılar,
Hərəsi ayrılıqda həsrətdən pay aldılar.

Axır İlqar dilləndi, gəldim sənlə görüşüm,
Bəxtindən, taleyindən bir küsənlə görüşüm.

Uğurun yaxşı gələr, bir ümidlə yaşa sən,
Vurarsan öz ömrünü xoş uğurla başa sən.

Amma ürəklər burda ayrı sözlər deyirdi,
Ürəkləri yandıran düzü gözlər deyirdi.

Heç birisi doğrunu dilə gətirmədi də,
Sanki bülbül nəğməni gülə ötürmədi də.

Bir az keçdi astadan İlqar pozdu sükutu,
Son ümidin sonudu... Nana yozdu sükutu.

Mən sabah ayrılıram, bizim doğma Bakıdan,
Aparıram yaddaşı özüm doğma Bakıdan.

Sağ ol, sağlam ol, Nana, bəxtimiz belə gəldi,
İlqarın son sözləri inlədi, dilə gəldi.

Nana bildi son gediş aparır son baharı,
Dolmuş gözləri ilə yola saldı İlqarı.

Beləcə bir sevginin yolu belə bağlandı,
İki sevən aşiqin qəlbi belə dağlandı.

Son görüşdən ötdü vaxt, keçdi zaman aradan,
İlqar da aram oldu göynəm üstü yaradan.

Bir türk oğlu türkəm mən, qürurundan yenməyən,
Soyundan, soydaşından, kimliyindən dönməyən.

Damarımda çağlayan qanım gen yaddaşımdır,
Üz qoyub əyildiyim torpağımdır, daşımdır.

Məndən əvvəl babalar doğma yurdu öyüblər,
Sevdaların əzəli Vətənimdir deyiblər.

Yaddaşına güvənən aşiqlər də yanılmaz,
Aşıb-daşsa acılar həqiqətlər danılmaz.

Duyğular oyandıqca İlqar da dirçəlirdi,
Qüruru zaman-zaman axarda dirçəlirdi.

Xatırlayır, düşünür, Cavidin Sənanını,
Bir Xumarın eşqinə alışıb yananını.

Boynundan xaç assa da, şeyxiliyi dansa da,
Kama çatmır eşqində alışsa da, yansa da.

Əslini diyar-diyar gəzdirdi Qara Keşiş,
İnsanlığın bətnində sağalmaz yara keşiş.

Kərəmi gədik üstə tufana saldı eşqi,
Öz ahında yandırıb bəyana saldı eşqi.

İlqar yaxşı bilirdi bəlalar hardan gəlir,
"Din ayrı" xof üstündə hiylədən, tordan gəlir.

Zəhərlənmiş beyinlər fürsət, məqam gözləyir,
Altdan-altdan kin dolu ədavəti közləyir.

Tarixi düşüncələr beyində durulurdu,
İlqar sanki təzədən tikilir, qurulurdu.

Əlindəki məktuba nəzər saldı bir daha,
Sanki boylandı, baxdı daha aydın sabaha.

Bir vaxt ona nəğməydi Nananın hər kəlməsi,
Kağız üstə düzülmüş, bərq vuran dür kəlməsi.

Ağzındakı hər sözdə bir vaxt məna gəzərdi,
Çiçək-çiçək sözləri varlığına düzərdi.

(Davamı 13-cü səhifədə)

# ÖLMƏYƏN SEVGİNİN DASTANI

*(Əvvəli 9-cu səhifədə)*

Çirklənmiş kağız idi o hisslər, duyğular,
Daha ötüb keçmişdi o xəyallar, uyğular.

Dəyərini itirmiş kağızı cırıb atdı,
Təəssüflə düşündü... bu da belə həyatdı.

Sakit axan Volqaya dayanıb xeyli baxdı,
Bir dərin düşüncədən oyanıb xeyli baxdı.

Varlığından axırdı göy sular, duru sular,
Varlığını yuyurdu bu axan uru sular.

Göy suların üstündən üfüqə boylanırdı,
Dan üzünə açılan səhərə haylanırdı.

Salam, mənim sabahım, salam mənim səhərim,
Bilirəm, dan üzünə bitər mənim qəhərim.

İlqarın varlığına təzə günəş doğurdu,
Təzə günəş qəlbində qəhərləri boğurdu.

O zamandan İlqarın sevgisi sənət oldu,
Söz içində böyüdü, sənətdə yaşa doldu.

Özümə bir təxmis ilə sözümü bitirirəm,
Sevənlərin ruhuna salamlar yetirirəm.

Xələfliyə təxmisi oxuyanlar zövq alsın,
Əli Rza qələmindən ilham alsın, şövq alsın.

Könül evi sevənlərə çətir olar, çardağ olar,
Bir ananın qucağında tifil yeri qundağ olar,
Sevgisinə əsir olan öz eşqinə dustağ olar;
"Könlüm dərdin sazanəsi, mizrab ələ ortağ olar,
Qövr eləyən yaralara mil çəkilər, dağ- dağ olar".

Sürək üstə bərələrə qıcanan diş ov-ov qalxar,
Tamah yanar köz üstündə, iddialar dov-dov qalxar,
Məqsədinə, məramına can atanlar tov-tov qalxar,
"Ürəyimdə təndir yanar, nəfəs-nəfəs alov qalxar,
Qığılcımlar qorlanmada, könlüm başı cızdağ olar.

Mələr qalan bir sevginin ayrılığı qara bağlar,
Öz qəlbimə axan qanım salxım- salxım qora bağlar,
Ümidimin öz əlləri son nəfəsdə vara, bağlar.
"Səsimdəki yanan səda söz- söz, göz- göz yara bağlar,
Bircə vulkan püskürərsə, bir həmlədə yüz dağ olar".

Hər sözümün harayı var, fəryad- fəryad mənə qısmət,
Yanardağam, taleyimə yazılan ad mənə qismət,
Bir Şirinsiz Fərhad oldum, bu acı dad mənə qismət,
"Səməndərəm öz eşqimdə , əbədi od mənə qismət,
Dil ağızda pörşələnsə harayçısı dodağ olar".

Məcnun ağlar məzar üstə kamsız qalan sevgisinə,
Leyli dözməz göz önündə vaxtsız solan sevgisinə,
Füzulilər ağlar qalar qəlbi talan segisinə,
"Vətən bilər səhraları sadiq olan sevgisinə
Əzabına xilafların nəsibi də çildağ olar".

Ustadların arxasınca yollar üstə iz dərirəm,
Düşüncəmdən əzab- əzab fikir yığıb, söz dərirəm,
Gözlərimlə od götürüb manqal- manqsl köz dərirəm,
"Özüm boyda bir işığam, üfüq boyu közərirəm,
Qara bulud ötəridir, günəş yenə çırağ olar".

İldırımdı fikirlərim, şimşək- şimşək çaxıb gedər,
Bu torpağın yaxasında zəliləri yaxıb gedər,
İlhamımın söz yağışı selə dönüb axıb gedər,
"Gərilmişəm yay üstündə, misralarım baxıb gedər,
Ehtiyatda qalan oxun yeri ancaq sadağ olar"

Doğruları ağ eləyər hər açılan sabah özü,
Hara dönsə insanlığın cəzasıdır günah özü,
Səhvə görə peşmanlığın sədasıdır hər "ah" özü,
"Ətəyində əlin varsa, kərəm qılar Allah özü,
Baş üstündə, qaş üstündə Mehrab qiblə tağ- tağ olar".

Ac quş idim tora düşdüm dənə düşən sünbül üçün,
Əli Rza da duyğulara qələm çaldı dil- dil üçün,
Hər bülbülü ağlar gördüm çəmən üstə gül-gül üçün,
"Ey Xələfli, zindan olar qızıl qəfəs bülbül üçün,
Azadlıqda oxuyarsa, Vətən ona budağ olar"

***10.10.2025***